***ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI***
***METHODS OF TEACHING LITERATURE***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ЛИТЕРАТУРЫ***

*UOT 372.882*

***Xəyalə Allahverdi qızı Qəhrəmanova***
*Bakı şəhəri, Nərimanov rayonu*
*Evrika liseyinin Azərbaycan dili və ədəbiyyatı müəllimi*
*https://orcid.org/0009-0001-0326-9131*
*E-mail: memmedov0603@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).86-89*

# ƏDƏBİYYAT FƏNNİNDƏ SİMULİYASİYA ƏSASLI TƏDRİSİN ŞAGİRD BACARIQLARINA MÜSBƏT TƏSİRİ

***Khayala Allahverdi Gahramanova***
*teacher of Azerbaijani language and literature at Evrika Lyceum of Narimanov District of Baku city*

# THE POSITIVE IMPACT OF SIMULATION-BASED TEACHING IN LITERATURE ON STUDENT SKILLS

***Хаяла Аллахверди гызы Гахраманова***
*учитель азербайджанского языка и литературы лицея «Эврика» Наримановского района города Баку*

# ПОЛОЖИТЕЛЬНОЕ ВЛИЯНИЕ СИМУЛЯЦИОННОГО ОБУЧЕНИЯ НА РАЗВИТИЕ НАВЫКОВ УЧАЩИХСЯ В ПРЕПОДАВАНИИ ЛИТЕРАТУРЫ

**Xülasə**. Müasir təhsil sistemində şagirdyönlü və fəal öyrənmə metodları xüsusi əhəmiyyət kəsb edir. Simulyasiya əsaslı tədris üsulu şagirdlərin dərs prosesində aktiv iştirakını təmin edən innovativ yanaşmalardan biridir. Bu məqalədə ədəbiyyat dərslərində simulyasiya metodunun tətbiqi, onun şagirdlərin tənqidi təfəkkür, nitq mədəniyyəti, empatiya, yaradıcılıq və problem həll etmə bacarıqlarına təsiri təhlil olunur.
***Açar sözlər:*** *simulyasiya, fəal təlim, ədəbiyyat tədrisi, tənqidi təfəkkür, yaradıcılıq*

**Abstract.** In the modern education system, student-centered and active learning methods are of particular importance. Simulation-based teaching is one of the innovative approaches that ensures the active participation of students in the learning process. This article analyzes the application of the simulation method in literature lessons and its impact on students' critical thinking, speech culture, empathy, creativity and problem-solving skills.
***Keywords:*** *simulation, active learning, literature teaching, critical thinking, creativity*

**Аннотация.** В современной системе образования особое значение приобретают активные методы обучения, ориентированные на ученика. Метод симуляционного обучения является одним из инновационных подходов, обеспечивающих активное участие учащихся в учебном процессе. В данной статье анализируется применение метода симуляции на уроках литературы и его влияние на развитие у учащихся критического мышления, культуры речи, эмпатии, творческих способностей и навыков решения проблем.
***Ключевые слова:*** *симуляция, активное обучение, преподавание литературы, критическое мышление, творчество*

Müasir pedaqoji yanaşmalara əsasən, şagird təlim prosesində aktiv subyekt kimi çıxış etməlidir. Konstruktivist nəzəriyyəyə görə bilik hazır formada ötürülmür, şagird tərəfindən qazanılır [1]. Bu baxımdan simulyasiya əsaslı tədris ədəbiyyat dərslərində effektiv metod kimi çıxış edir.

Simulyasiya – real və ya şərti situasiyanın modelləşdirilməsi yolu ilə öyrənmə prosesinin təşkilidir. Ədəbiyyat dərslərində bu metod rollu oyunlar, debatlar və səhnələşdirmə vasitəsilə həyata keçirilə bilər.

Simulyasiya əsaslı tədris sosial konstruktivizm və təcrübəyə əsaslanan öyrənmə nəzəriyyələrinə söykənir. L. Vqotski sosial qarşılıqlı fəaliyyətin idrak inkişafında mühüm rol oynadığını vurğulamış, J.Piaje idrak inkişafının mərhələli şəkildə formalaşdığını qeyd etmişdir. J. Devey isə təcrübəyə əsaslanan öyrənmənin əhəmiyyətini xüsusi vurğulamışdır.

Təhsil sistemində baş verən yeniliklər müəllim mərkəzli təlimdən şagird mərkəzli təlimə keçidi zəruri etmişdir. Bu yanaşma şagirdlərin hazır informasiyanı qəbul etməsi deyil, onu analiz və interpretasiya etməsi üzərində qurulur. Ədəbiyyat dərsləri isə şagirdlərdə analitik təfəkkürün, müqayisə aparmaq və nəticə çıxarma bacarıqlarının inkişafı üçün əlverişli mühit yaradır.

Tədris prosesində simulyasiyaların tətbiqi ilə yanaşı, müəllimin fərdi xüsusiyyətləri də şagirdlərin yaradıcı potensialının üzə çıxmasında mühüm rol oynayır. Aparılan tədqiqatlar göstərir ki, təcrübəyə (yaşamağa) açıqlıq səviyyəsi yüksək olan müəllimlər sinif daxilində yaradıcılığı daha çox stimullaşdırır və bu, birbaşa şagirdlərin yaradıcılıq göstəricilərinin yüksəlməsinə səbəb olur. Maraqlıdır ki, razılaşma və ya nevrotiklik kimi digər şəxsiyyət xüsusiyyətlərinin yaradıcılıq balları üzərində bənzər bir təsiri müşahidə olunmamışdır. [2]

Simulyativ tədris real və ya şərti situasiyaların modelləşdirilməsi vasitəsilə öyrənməni təşkil edən fəal metodlardan biridir. Bu üsul şagirdləri ədəbi mətnlə "canlı təmas"a gətirir və onları düşünməyə, müzakirə etməyə və qərar verməyə sövq edir.[3]

Ədəbiyyat fənnində similyativ tədrisin şagird bacarıqlarına bir sıra müsbət təsiri vardır. Bunlar aşağıdakılardır:

1. **Şagirdlərin tənqidi təfəkkürü formalaşır.**

Simulyasiya şagirdlərin analiz, müqayisə və qiymətləndirmə bacarıqlarını inkişaf etdirir. Müasir təhsil sistemində şagirdlərin tənqidi təfəkkür bacarıqlarının inkişafı prioritet istiqamətlərdən biridir. Ədəbiyyat fənni mətn analizi, obrazların təhlili və ideya-məzmunun qiymətləndirilməsi baxımından tənqidi düşüncənin formalaşması üçün geniş imkanlar yaradır. Simulyativ (simulyasiya əsaslı) tədris metodu isə bu prosesdə şagirdlərin fəal iştirakını təmin edərək analitik və müstəqil düşünmə bacarıqlarını gücləndirir.

Simulyativ tədris aşağıdakı istiqamətlərdə şagirdin tənqidi təfəkkürünün inkişafına şərait yaradır:

- ✓ **Analiz bacarığı:** Şagirdlər hadisələrin səbəb-nəticə əlaqələrini araşdırır və obrazların davranışlarını əsaslandırırlar.
- ✓ **Müqayisə və qiymətləndirmə:** Fərqli baxış bucaqları ilə tanış olmaq şagirdlərə obyektiv qiymətləndirmə aparmağa imkan verir.
- ✓ **Arqumentasiya:** Debat və müzakirələr zamanı şagirdlər öz mövqelərini fakt və sitatlarla əsaslandırırlar.
- ✓ **Problemin həlli:** Alternativ qərarlar irəli sürmək yaradıcı və tənqidi düşünməni gücləndirir.
- ✓ **Müstəqil nəticə çıxarma:**Şagirdlər müəllimin hazır nəticəsini deyil, öz formalaşdırdıqları qənaəti təqdim edirlər.

**2. Nitq və kommunikativ bacarıqlar.** Debat və rollu oyunlar şagirdlərin arqument gətirmə və təqdimat bacarıqlarını gücləndirir. Müasir təhsil sistemində şagirdlərin kommunikativ səriştələrinin formalaşdırılması prioritet istiqamətlərdən biridir. Ədəbiyyat fənni nitq mədəniyyəti, ifadə bacarığı və ünsiyyət qabiliyyətinin inkişafı üçün geniş imkanlar yaradır. Simulyativ tədris isə şagirdlərin dərs prosesində fəal iştirakını təmin etməklə onların şifahi və yazılı nitq bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. Ədəbiyyat dərslərində şagirdlərin nitq bacarıqlarını inkişaf etdirmək üçün simulyasiya müxtəlif üsullarla həyata keçirilə bilər:

- ✓ Rollu oyunlar – obrazların dialoqlarının canlandırılması;
- ✓ Debatlar – əsərin ideyası ətrafında fikir mübadiləsi;
- ✓ Ədəbi müsahibə – şagirdlər müəllif və ya qəhrəman rolunda çıxış edirlər;
- ✓ Səhnələşdirmə – dram parçalarının təqdimatı;
- ✓ Ədəbi məhkəmə – obrazın hərəkətlərinin müzakirəsi.

Məsələn, Cəlil Məmmədquluzadənin satirik əsərlərinin debat formasında təhlili şagirdlərin arqumentasiya bacarığını inkişaf etdirir. Eyni zamanda M.F. Axundzadənin dram əsərlərinin səhnələşdirilməsi şagirdlərin ifadəli nitq və intonasiya bacarığını gücləndirir.

Simulyativ tədrisin nitq və kommunikativ bacarıqlara təsiri aşağıdakılardır:

- ✓ **Şifahi nitqin inkişafı:** Şagirdlər çıxış edir, müzakirələrdə iştirak edir və fikirlərini əsaslandırırlar. Bu proses nitqin axıcılığını və düzgünlüyünü artırır.
- ✓ **Söz ehtiyatının zənginləşməsi:** Bədii mətnlərlə işləmək və obrazların dilini təqlid etmək leksik ehtiyatın artmasına səbəb olur.
- ✓ **Dinləmə bacarığı:** Kommunikativ fəaliyyət yalnız danışmaq deyil, həm də diqqətli dinləmək bacarığını formalaşdırır.
- ✓ **Qeyri-verbal ünsiyyət:** Səhnələşdirmə zamanı jest, mimika və intonasiya kimi elementlər də inkişaf edir.
- ✓ **Yazılı nitqin inkişafı:** Simulyasiya əsasında hazırlanmış esse, dialoq və alternativ sonluqlar yazılı ifadə bacarığını möhkəmləndirir.
- ✓ **Empatiya və sosial bacarıqlar.**

Obrazların daxili aləmini anlamaq empatiyanın formalaşmasına səbəb olur. Bu, xüsusilə klassik ədəbiyyat nümunələrinin tədrisində effektivdir [3]. Məsələn, Nizami Gəncəvinin qəhrəmanlarının mövqeyindən çıxış etmək şagirdlərin mənəvi dəyərlərini gücləndirir.

**4. Yaradıcı təfəkkürün inkişafı.** Ədəbiyyat fənninin tədrisində simulyasiya əsaslı tədris şagirdlərin yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynayır. Bu üsul ənənəvi izah və yaddaşa əsaslanan dərs modelindən fərqli olaraq, şagirdləri aktiv iştirakçıya çevirir və onları hadisələri yaşamağa, təhlil etməyə və yenidən qurmağa sövq edir.

Simulyasiya əsaslı tədris – ədəbi əsərlərdəki hadisələrin, obrazların və situasiyaların səhnələşdirilməsi, rollu oyunlar, debatlar, məhkəmə prosesi formatı, alternativ sonluq yazılması kimi fəaliyyətləri əhatə edir. Şagirdlər sadəcə oxucu deyil, həm də müəllif, tənqidçi və ya obraz rolunda çıxış edirlər. Məsələn: Cəfər Cabbarlının əsərlərində sosial problemlərin debat şəklində müzakirəsi, V. Şeksprin "Romeo və Cülyetta" əsərinin alternativ sonluqla səhnələşdirilməsi, İlyas Əfəndiyevin dram əsərlərinin rollu oyun formasında təqdim olunması və s.

Simulyativ əsaslı tədris şagird təxəyyülünü genişləndirir. Şagird obrazın yerinə keçərək onun düşüncəsini, hisslərini və qərarlarını anlamağa çalışır. Bu proses empati və yaradıcı düşünmə qabiliyyətini gücləndirir. [6] Hadisələrin səbəb-nəticə əlaqələrini araşdırmaq, alternativ həll yolları təklif etmək şagirdin müstəqil düşünmə bacarığını artırır.

Simulyasiya zamanı şagirdlər mübahisəli situasiyalara yaradıcı yanaşma nümayiş etdirirlər. Bu da onlarda problem həll etmə bacarığı formalaşdırır.

Simulyasiya əsaslı tədris üsulu ədəbiyyat dərsini passiv öyrənmə mühitindən aktiv yaradıcılıq mühitinə çevirir. [7] Bu yanaşma şagirdlərdə yalnız bilik deyil, həm də düşünmə, analiz və yaradıcılıq bacarıqlarının formalaşmasına şərait yaradır.

Simulyasiya əsaslı tədris ədəbiyyat dərslərində şagirdlərin idrak, sosial və emosional bacarıqlarının kompleks inkişafına şərait yaradır. Nəzəri mənbələr və pedaqoji yanaşmalar göstərir ki, fəal və təcrübəyə əsaslanan metodlar ənənəvi tədris üsullarından daha effektiv nəticələr verir.[5]

Ədəbiyyat dərslərində simulyasiya müxtəlif formalarda tətbiq edilə bilər. Məsələn,

- ✓ **Rollu oyunlar** – şagirdlər obrazların roluna daxil olur;
- ✓ **Ədəbi məhkəmə** – qəhrəmanın hərəkətləri hüquqi və etik baxımdan qiymətləndirilir;
- ✓ **Debat** – əsərin ideyası və müəllif mövqeyi müzakirə edilir;
- ✓ **Alternativ sonluq qurma** – süjetin fərqli inkişaf variantları təqdim olunur.

Simulyasiya əsaslı tədris üsulu ədəbiyyat dərsini passiv öyrənmə mühitindən aktiv yaradıcılıq mühitinə çevirir. Bu yanaşma şagirdlərdə yalnız bilik deyil, həm də düşünmə, analiz və yaradıcılıq bacarıqlarının formalaşmasına şərait yaradır.

Ədəbiyyat fənnində simulyasiya əsaslı tədris metodunun tətbiqi dərsi sadəcə nəzəri biliklərin ötürülməsi prosesindən çıxararaq, onu canlı, interaktiv və təcrübi bir mühitə çevirir. Bu yanaşmanın əsas faydalarını belə qruplaşdıra bilərik:

- Bilikdən Bacarığa Keçid: Şagird mətni sadəcə oxumur, onu yaşayır. Bu da öyrənilən mövzunun yaddaşda daha dərindən və qalıcı şəkildə həkk olunmasını təmin edir.

- Şəxsiyyətyönlü İnkişaf: Rollu oyunlar, debatlar və ədəbi məhkəmələr vasitəsilə şagirdlərdə özünəinam artır, qərarvermə və kollektivdə işləmə bacarığı formalaşır.
- Analitik və Yaradıcı Potensial: Alternativ sonluqlar yazmaq və obrazları mühakimə etmək şagirdi standart qəliblərdən çıxarır, ona hadisələrə fərqli prizmalardan baxmağı öyrədir.
- Emosional Zəka (EQ): Obrazın daxili dünyasına nüfuz etməklə şagirdlərdə empatiya hissi güclənir ki, bu da onların sosial fərd kimi yetişməsində mühüm rol oynayır.

**Problemin aktuallığı.** Mövzunun aktuallığı müasir təhsil islahatları, kompetensiya əsaslı yanaşma, şagirdyönlü təlim prinsipləri və yaradıcı şəxsiyyət formalaşdırılması tələbi ilə müəyyən olunur. Simulyasiya əsaslı tədris ədəbiyyat fənninin effektivliyini artıran və şagird bacarıqlarının inkişafına real təsir göstərən innovativ yanaşma kimi xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Simulyasiya əsaslı tədrisin ədəbiyyatın tədrisində interaktiv metodların sistemli, məqsədyönlü və bacarıq əsaslı modelini təqdim edir və onun şagird inkişafına təsirini elmi əsaslarla izah edir. Mövzunun elmi yeniliyi ədəbiyyat tədrisində simulyasiya əsaslı yanaşmanın nəzəri və praktik modelinin hazırlanması, onun bacarıq inkişafına təsir mexanizminin elmi əsaslandırılması və ölçülə bilən nəticələrlə sübut edilməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti.** Ədəbiyyat fənnində simulyasiya əsaslı tədrisin şagird bacarıqlarına müsbət təsiri mövzusunun praktik əhəmiyyəti ondan ibarətdir ki, bu yanaşma nəzəri biliklərin real fəaliyyətə çevrilməsini təmin edir və şagirdlərin çoxşaxəli bacarıqlarını inkişaf etdirir. Simulyasiya əsaslı tədris ədəbiyyat dərslərini daha səmərəli, yaradıcı və şagirdyönlü edir. Bu yanaşma şagirdlərin həm akademik nailiyyətlərini, həm də sosial və kommunikativ bacarıqlarını inkişaf etdirərək onların şəxsiyyət kimi formalaşmasına töhfə verir.

## Ədəbiyyat


1. Abbasov, A.N. Pedaqogika / A.N. Abbasov. – Bakı: Mütərcim, –2010. –656 s.
2. Feyzullah, Ş. The Effects of Personality Traits of Teachers on the Development of Student Creativity // –Turkish: Education and Science, –2021. 46(205), –s. 191-205. - https:// edu catio nand science .ted.org.tr/article/view/1947
3. Alışov, O.B. Təlim prosesində fəal və interaktiv metodlar / O.B. Alışov. – Bakı: Təhsil,– 2014. – 248 s.
4. Həsənli, B.A. Ədəbiyyatın tədrisi metodikası / B.A. Həsənli. – Bakı: Müəllim, –2012. – 360 s.
5. Hüseynzadə, R.L. Ədəbiyyatın tədrisi metodikası / R.L. Hüseynzadə. – Bakı: ADPU-nun nəşriyyatı, –2012. –304 s.
6. Mahmudova, Ş.Ə. Uşaq ədəbiyyatı fənninin interaktiv təlim metodları ilə tədrisi / Ş.Ə. Mahmudova. – Bakı: Avropa, –2014. – 160 s.
7. Paşayev, Ə., Həsənov, F. Pedaqogika / Ə. Paşayev, F. Həsənov. – Bakı: Elm və Təhsil, –2010. – 464 s.
8. Novruzova, G.Ə. Ədəbiyyat dərslərində dramatik əsərlərin müqayisəli təhlili üzrə işin təşkili // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,–2021. № 6, –s. 91-95 – https://journals.arti.edu.az/uploads/f_20240423103408201107 1395.pdf


**Redaksiyaya daxil olub:** 29.04.2026